

# Gəncə Beynəlxalq Məktəbi

Məlumat Kitabçası 2008

## MÜNDƏRICAT

Giriş ........ 2
Tarix........ 3
Lisenziya........ 3
Dəyərlər və əsas vurğular ........ 4
  Uşaqların tam potensialını inkişaf etdirmək üçün kömək etmək .... 4
  Uşaqları həyatın əsas təməli ilə təmin etmək ........ 5
  Uşaqları beynəlxalq perspektivlə təmin etmək ........ 7
Nə üçün biz özəl məktəblərə inanırıq ........ 9
Tədris vəsaitləri ........ 10
  Riyaziyyat kitabları ........ 10
İdarəetmə ........ 11
  Komitə və onun işi........ 11
  Əsas idarəetmə sənədləri ........ 12
İşçi heyətinin təlimatlandırılması ........ 12
Tələbələr........ 13
Xüsusi təhsilə ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiyasının əhəmiyyəti ........ 14
İntensiv (davamlı) ingilis dili proqramı ........ 14
Vəsaitlər........ 14
Dərsdənkənar əlavə məşğələlər........ 16
Gəncədə xarici ailələrdən olan uşaqlar və investisiya üçün olan əhəmiyyətlər. ........ 16
Müəllimlər və işçi heyətinin qeydləri ........ 17
Ödənişlər ........ 18
Təhsil Haqqı ........ 19
GBM-nin əsas işçi heyəti ........ 19

Kontakt məlumatı

Gəncə Beynəlxalq Məktəbi
Azərbaycan Respublikası
Gəncə Şəhəri
1 Zülfügar Məmmədov küçəsi

Tel. +994 44 222 0388
Email: gisadmin@azeronline.com
Website: www.ganja-international-school.org
Məktəbin jurnalı redaktoru:
simon@ganja-international-school.org

## S AND P TRAINING

Gəncə Beynəlxalq Məktəbi “S and P Training” firmasının nəzdində fəaliyyət göstərir. “S and P Training” firması 1998-cü ildə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçdi. Qeydiyyat nömrəsi: 3088947,

## GIRIŞ

Gəncə Beynəlxalq Məktəbinə xoş gəlmişsiniz! Siz övladınız üçün Gəncə Beynəlxalq Məktəbini seçərkən, çox nadir seçim edirsiniz. Bu cəsarətli iddiadır, lakin buna əsas var. Azərbaycanda məhz Gəncə Beynəlxalq Məktəbi kimi məktəb yoxdur.

- Gəncə Beynəlxalq Məktəbi iki-dillidir. Siniflərdə həm Azərbaycan həm də İngilis dillərindən istifadə olunur. Belə ki, lap yuxarı siniflərin dərslərinin bəziləri xarici müəllimlər tərəfindən ingilis dilində, bəziləri isə azərbaycan müəlimləri tərəfindən azərbaycan dilində keçilir.
- Gəncə Beynəlxalq Məktəbi əsasən Birləşmiş Krallığın Milli Tədris planına riayət edir.
- Gəncə Beynəlxalq məktəbinin təhsil xərci adi insanların imkanı daxilindədir. 2008/09 tədris ili üçün bu cəmi 405 AZN təşkil edir.
- Gəncə Beynəlxalq Məktəbi Azərbaycanın ənənələrinə və mədəniyyətinə hörmət bəsləyir.
- Gəncə Beynəlxalq Məktəbində xüsusi tədrisə ehtiyacı olan uşaqların kiçik bir qrupu var.

İnkişaf, yerli və beynəlxalq perspektiv, və həyat üçün möhkəm bünövrə qoymaq məqsədləri məktəbin rəmzində təmsil olunur.



2007-ci təhsil ilin sonundakı məktəb konserti

## TARIX

Gəncə Beynəlxalq Məktəbi 2003-cü ildə, mayın 12-də, altı nəfərdən ibarət olan bir siniflə fəaliyyətə başlamışdır. Növbəti illər ərzində məktəb sürətlə böyüdü və 2005-ci ildə məktəbdə 100 nəfər - 3 yaşdan 9 yaşadək uşaq var idi, ancaq bunların hamısı azərbaycanlı deyildilər.  2007-ci ildə məktəb öz binasına köçdü, amma oktyabr ayına qədər fəaliyyət göstərə bilmədi. Məktəb fəaliyyətini gec başladığı üçün uşaqların sayı 40-a endi, ancaq indi yenidən uşaqların sayı artmaqdadır.

2007-ci ildə Gəncə Beynəlxalq Məktəbinin əlaqələri və ona dəstək göstərənlərin sayı artmışdır. İlk növbədə Norveç Humanitar müəssisəsi Gəncə Beynəlxalq Məktəbinə dəstək olmağı qərara aldı. Bu Gəncə Beynəlxalq Məktəbinə maddi köməklə, Norveçlilərin dəstəyi ilə nəticələndi, məsələn, 2007-ci ilin ikinci yarısında Gəncə Beynəlxalq Məktəbində tədris edən Reydn buna nümunə ola bilər. Hal-hazırda Sinövə dərs deyir.





Yuxarı şəkildə Reydn, aşağı şəkildə Sinövə.

Azed AZERBAIJAN Education

Həmin ildə, bir müddət sonra Gəncə Beynəlxalq Məktəbinin Britaniyadakı dostları "Azərbaycan Tədrisi" qeyiyyatdan keçmiş və xeyriyyəçi təşkilatı təsis etdilər. Bu təşkilat Britaniyada, Gəncə Beynəlxalq Məktəbinin profilini artırmaq üçün, maddi dəstəyə təminat vermək üçün, praktik kömək və məsləhətin digər formalarını təklif etmək üçün fəaliyyət göstərir. Məsələn, "Azərbaycan tədrisi" bizi Britaniyanın tədris müfəttişi ilə yaxınlaşdırdı. Ümid edirik ki, həmin müfəttiş bu il Gəncə Beynəlxalq Məktəbinə baş çəkəcək.

## LISENZIYA

2006-cı ilin sonuna qədər Azərbaycan hökməti qanunu özəl məktəblərin təsisi üçün  qətnamələr vermirdi və bir neçə illər əvvəl yaranan özəl məktəblər xüsusi dərəcələr əsasında təsis olunmuşlar. 2006-cı ilin sonunda hökümət, özəl məktəbləri öz fəaliyyət siyahısına daxil etdi və artıq lisenziyalar əldə oluna bilərdi. Gəncə Beynəlxalq Məktəbi Təhsil Nazirliyinə məktəbin fəaliyyəti üçün müraciət etdi və Təhsil Nazirliyi məktəbin tələb olunan standartlarına cavab verib-vermədiyini müəyyənləşdirmək məqsədi ilə yaxın gələcəkdə Gəncə Beynəlxalq Məktəbinə komissiya göndərməyi məsləhət gördü.

# DƏYƏRLƏR VƏ ƏSAS VURĞULAR

Bizim məktəbimizin məqsədi

1. uşaqların tam potensialını inkişaf etdirmək üçün onlara kömək etmək
2. həyat üçün əsaslı təməl yaratmaq
3. beynəlxalq perspektiv təmin etməkdir.

## UŞAQLARIN TAM POTENSIALINI INKIŞAF ETDIRMƏK ÜÇÜN KÖMƏK ETMƏK



Hər uşaq fərdidir və bir uşağa yaxşı təsir edə biləcək şey, diğəri üçün yaxşı təsir etməyə bilər. Məktəbin təhsil planı prosesi hər uşağa fərdi yanaşılmağı və hər bir uşaqın tam potensialını inkişaf etdirə biləcək bir mühitin olmasını əhatə etməlidir. Gəncə Beynəlxalq Məktəbi buna aşağıdakı yollarla nail olmağa çalışır:

- Qiymətləndirilmə
- Fərqləndirmə
- Şagirdə yönəldilmiş təlim
- İşçi heyətinin şagirdlərə olan yüksək nisbəti
- İngilis dilinin ikinci ana dili kimi tədrisi proqramı
- Xüsusi təhsilə ehtiyacı olan uşaqlara diqqət

‘Xüsusi təhsilə ehtiyacı’ olan uşaqların xüsusi diqqətə də ehtiyacı var.

## QIYMƏTLƏNDIRILMƏ

Uşağın fərdi ehtiyaclarını qiymətləndirməsiz anlamaq mümkün deyil. Gəncə Beynəlxalq Məktəbində uşaqlar tədris müddəti ərzində müxtəlif fənnlərdən qiymətləndirilirlər və nəticələr tədris haqda məlumat vermək üçün istifadə olunur. Qiymətlədirilmə lap ilk pillədən başlayır. Uşaqların biliyi lüğət ehtiyatı, yazı və saymaqdan başlayaraq qiymətləndirilirlər. Müəllim isə müvafiq olaraq hər bir uşaq üçün fərdi cədvəli doldurur.

Bu il biz riyaziyyat, elm, nitq və yazıdan yeni qiymətləndirmə üsulları təqdim etmişik. Biz uşaqların bütün standart tapşırıqlardan olan ümumi bal hesablarını nəzərə almışıq, belə ki, uşaqlar və müəllimlər hər pillədən nə öyrəndikləri haqda məlumatlandırıla biləcəklər. Hər rübün sonunda hər bir uşaq üçün onun bal hesabını təşkil edən fərdi cədvəllər tutulacaq.

## FƏRQLƏNDIRMƏ

Bu iş belə fərqləndirilir ki, yüksək bacarığa malik olan uşaqlar gərgin işləyə bilərlər, ancaq daha çətin qavrayan uşaqlara bu yolda əlavə köməklik göstərilir və onların qavrama səviyyəsinə müvafiq olaraq bir sıra tapşırıqlar verilir.

## ŞAGIRDLƏRƏ YÖNƏLDILMIŞ TƏLIM

Birləşmiş Krallığın tədris planı, uşaqların öz məqsədlərini qurmağa, şəxsi inkşaflarına görə məsuliyyət daşımaqlarını dəstəkləyən, uşaqların düşüncələrini inkişaf etdirmək üçün sual-cavab aparılmasından istifadə edən və uşaqlara öz şəxsi iş tərzlərinə müvafiq iş görmələrini icazə verən "Şagirdlərə yönəldilmiş təlim"ə əsas diqqət yetirir. Qeyd edək ki, Gəncə Beynəlxalq Məktəbi də "Şagirdlərə yönəldilmiş təlim"i öz tədris planında istifadə edir.

## İNGILIS DILININ ƏLAVƏ TƏDRISI PROQRAMI

İngilis dilini az bilən və məktəbə birinci il daxil olan uşaqlara günortalar tək-tək və ya kiçik qrup şəklində əlavə köməkliklər göstərilir.  Ümumiyyətlə belə köməklik həm ingilis dili onlar üçün çətin gələn və onun öyrənilməsi üçün əlavə köməyə ehtiyacı olan uşaqlara da göstərilir.

## İŞÇI HEYƏTININ ŞAGIRDLƏRƏ OLAN YÜKSƏK NISBƏTI

Gəncə Beynəlxalq Məktəbində işçilərin şagirdlərə nisbəti hal-hazırda belədir: bütün əsas fənnlər üçün 1 müəllimə 8 uşaq həvalə olunur. Bu o deməkdir ki,  ya bizim sinifimiz balacadır və yaxud bizim sinifdə yüksək səviyyəli kömək göstərmək üçün köməkçilərimiz var. Bu bizə fərqləndirmə tədrisini təmin etməyə və bizdə uşaqların fərdi ehtiyaclarının daha effektiv şəkildə ödənilməsində əminlik yaradır.

## XÜSUSI TƏHSILƏ EHTIYACI OLAN UŞAQLAR

Bu uşaqlar fiziki və ya əqli çətinlikləri olan və xüsusi ehtiyacları olan uşaqlardır. Hal-hazırda bizim görmə qabiliyyətində, sinxron əlaqə və nitqdə qüsurları olan uşaqlarımız var.

Hər bir xüsusi təhsilə ehtiyacı olan uşaq, ona yardım olan proqramla yanaşı öz səviyyəsinə uyğun tapşırıqlarla da fərdi şəkildə təhsil alır. Bu tapşırıqlara rübdə bir dəfə baxılır və bunları müzakirə etmək üçün valideynlərlə iclas keçirilir. Fərdi olaraq belə uşaqlar xüsusi tədris vəsaiti və avadanlığı ilə təmin olunurlar.

## UŞAQLARI HƏYATIN ƏSAS TƏMƏLI ILƏ TƏMIN ETMƏK

Yaxşı təhsil uşağa ancaq bilik vermir, o həmçinin ona "yaxşı"nı "pis"dən ayırmağı öyrədir. Beləliklə təhsil həyatın təməli deməkdir.

Uşaqlar davranış qaydalarının çoxunu məktəbdən öyrənirlər və məktəblər "yaxşı"nı və "pis"i öyrətmək məsuliyyətini daşıyırlar. İngilis dili və riyaziyyat qədər vacib  olmadıqlarına baxmayaraq, bu keyfiyyətlər Gəncə Beynəlxalq Məktəbinin əsas məqsədlərindən hesab olunur.

Gəncə Beynəlxalq Məktəbi aşağıdakı vasitələrlə yaxşı davranış qaydalarını tədris etməyə çalışır:

- Uşaqlara yaxşı davranış nümunəsi olaraq.
- Davranışla əlaqəli yaxşı tərtib edilmiş və aydın üsuldan istifadə edərək

## YAXŞI DAVRANIŞ NÜMUNƏSI OLMAQ

Gəncə Beynəlxalq Məktəbində müəllimlər uşaqlar üçün təhqiredici və qorxunc olan fiziki cəzadan istifadə etmirlər. Gəncə Beynəlxalq Məktəbinin qeyri-qanuni ödənişlər etməyə və ya qəbul etməyə zidd olan dəqiq siyasəti var. Gəncə Beynəlxalq Məktəbi kiçik qrup (hal-hazırda 4 nəfərdən ibarət) xüsusi təhsilə ehtiyacı olan uşaqlar qəbul edir. Bunun xüsusi təhsilə ehtiyacı olan uşaq üçün böyük xeyri var, çünki o özünü normal cəmiyyətdən kənarlaşdırılmış hiss etmir. Bu həmçinin adi uşaqlar üçün də xeyirdir, belə ki, onlar fərqli görünən uşaqları qəbul etməyi və onlara hörmət etməyi öyrənirlər. Nə oğlanlara, nə də qızlara xüsusi güzəştlər edilmir.

## DAVRANIŞLA ƏLAQƏLI YAXŞI TƏRTIB EDILMIŞ VƏ AYDIN ÜSUL

Biz ədalətli, yaxşı tərtib edilmiş və uşaqlar tərəfindən yaxşı qavranılan bir sistem inkişaf etdirməyə çalışmışıq. Eyni zamanda, qaydalar daima pozularsa, uşaqlar cəzanın vacib olmasını bilirlər.

Biz bütün tədris dövründə yaxşı davranışa ardıcıl yaxınlaşmağa çalışırıq. Ümumi qaydalar və standartlar hər sinifdə bütün uşaqlar üçün təyin olunur və pis davranışlı uşaqlar üçün təcrübədən keçmiş sistem istifadə olunur. Bu aşağıdakılardır:

1. Yaşıl kart- uşaqlar qaydalara riayət edərlərsə və davranışları yaxşıdırsa
2. Ağ kart- rəsmi xəbərdarlıq
3. Sarı kart- 5 dəqiqəlik qrupdan çıxarılırlar
4. Narıncı kart- 10 dəqidə fasilədən kənarlaşdırılırlar
5. Qırmızı kart- 15 dəqiqə başqa sinif otağında otururlar
6. Göy kart- çox yaxşı hərəkət

Daima davam edən qayda pozuntuları baş müəllim və valideynlərlə olan iclasla nəticələnir. Uşaq qaydani pozduqda ondan hansı qaydanı pozduğunu təsdiq etməsi xahiş olunur ki, o nəticədə aldığı kartın səbəbini izah etsin.  Biz bu yaxınlarda davranışın müsbət sahələrini xüsusilə gücləndirmək üçün, məsələn sinifdə tamamilə qayğıkeş və diqqətli olan uşaqlar üçün, sistemimizə göy kart təqdim edəcəyik.

Davranışın saxlanılması üçün istifadə olunan başqa ümumi üsullar da var, məsələn çətin davranış olan uşaqlarla fərdi söhbətlər, sinif mükafatları və ya tənəffüs cərimələri bura daxildir.

## UŞAQLARI BEYNƏLXALQ PERSPEKTIVLƏ TƏMIN ETMƏK

Gəncə Beynəlxalq Məktəbindəki uşaqların çoxu Azərbaycanlıdırlar və onlar böyük dünyanı dərk etdikləri kimi öz irslərini də anlayıb, bundan böyük vüqar hissi duymalıdırlar. Gəncə Beynəlxalq Məktəbi bunu aşağıdakı vasitələrlə yerinə yetirməyə çalışır.

### AZƏRBAYCAN IRSI

Gəncə Beynəlxalq Məktəbi fəaliyyət göstərdiyi ölkəni və onun mədəniyyətini tanımağa davam edir. Gəncə Beynəlxalq Məktəbində Britaniya tədris planına riayət edilməsinə baxmayaraq, biz tədrisimizdə yaxşı tanınmış Azərbaycan ənənələrinə də riayət etməyə, tədris metodları və mövzuların yerli tədris sisteminə uyğun olmasına da çalışırıq. Tarix dərsində uşaqlar Azərbaycan və Asiya tarixini, coğrafiyada əsasən yerli coğrafiyanı və əlbəttə ki, uşaqlar Azərbaycan və Rus dillərini öyrənirlər. Biz tədris planımızda yerli adətləri öz həftəlik mövzumuzun bir hissəsi kimi qəbul edib qeyd edirik. Biz Novruz bayramını öz təhsil proqramımıza, məsələn ədəbiyyat, musiqi, rəsm və əmək dərslərinə daxil edirik. Biz həmçinin musiqi və bədən tərbiyəsi dərslərində milli mahnıları və rəqs növlərini öyrənirik. Bizim məktəb konsertlərimiz və iş prosesimiz də yerli mədəniyyəti əks etdirirlər.



Novruz konserti

### DÜNYA GÖRÜNÜŞÜ

Bizim üçün həm də dünya vətəndaşları olmağımız fikri vacibdir. Bizim arzumuz uşaqları ancaq beynəlxalq miqyasda işləmək üçün hazırlamaq deyil. Biz dünyadakı müştərək məsuliyyətimizin olmasını da onlara anlatmağa çalışırıq.

## İNGILIS DILINƏ OLAN VURĞU

İngilis dili dünyadakı xəbər və informasiyaların əsas dilidir. Bu hətta az danışılan ölkələrdə belə biznes və hökumət dilidir. İngilis dili dəniz əlaqəsinin və beynəlxalq hava nəqliyyatı nəzarətinin dilidir və o hətta ana dili olmayan ölkələrdə hava nəqliyyat nəzarətinin dilidir. O yüksək nisbətdə kompyuter, əyləncə və filmlərin dilidir. Azərbaycanlıları ingilis dilinin vacibliyinə inandırmağa heç bir ehtiyac yoxdur.

Gəncə Beynəlxalq Məktəbi uşaqlara ingilis dilini inkişaf etdirməyə kömək etmək üçün əvəzsiz imkandır.  Birinci, Gəncə Beynəlxalq Məktəbinin Azərbaycanlı olan müəllimlərinin əksəriyyətinin ingilis dilində pedaqoji universitet diplomları var. İkinci, Gəncə Beynəlxalq Məktəbi "S&P Training"in bir qoludur.  "S & P Training"in əsas fəaliyyət sahəsi ingilis dilinin tədrisidir, beləliklə, onun bu sahədə təcrübəsi var. Üçüncü, Gəncə Beynəlxalq Məktəbinin uşaqlarla ingilis dilində ünsiyyət yaradan qərbdən olan bir sıra  işçi heyəti var.

Tədqiqat göstərir ki, uşaqlıq dövrü dillərin öyrənilməsi üçün ən yaxşı vaxtdır və bir dildən artıq dil bilərək böyüyən uşaqlar öz təhsillərinin digər sahələrində də daha çox öyrənməyə cəhd göstərirlər.

Gəncə Beynəlxalq Məktəbində uşaqlar bağça sinfinə qəbul olunan bir vaxtdan ingilis dilini öyrənməyə başlayırlar. Həmin mərhələdə dərslərin çoxu Azərbaycan dilində keçilir, ancaq uşaqlara ingilis dilində səslər və rəqəmlər tədris olunur. Onlara həmçinin ingilis dilinin şifahi və yazılı formalarını öyrədirlər. Uşaqlara tez-tez ingilis dilində təkrarlanan ifadələr və tapşırıqlar verilir və onlar tez bir zamanda bu sözləri artıq bilirlər.

Qəbul olunan yaşdan uşaqlara ingilis dilində sözləri oxu və lüğət kitablarından oxymağı öyrədirlər.  Sinifdə ingilis dilinin istifadəsi artır. Uşaqlar yuxarı sinfə çatan bir vaxta ingilis dili azərbaycan və rus dili dərslərindən başqa bütün fənnlərin tədrisində istifadə olunmalıdır. Uşaqlar da həmçinin ingilis dilində soruşmağa, cavab verməyə və müzakirə etməyə həvəs göstərirlər. Azərbaycan dili ancaq tarix və elm kimi fənnlərə aid olan yeni ideyaların, əsasən abstrakt prinsiplərin anlayışından əmin olmaq üçün istifadə olunur.

İngilis dilini bilməyən və məktəbin yuxarı sinfinə qəbul olunan uşaqlar dərhal intensiv ingilis dili proqramına uyğun tədris olunurlar, belə ki, onlara sinifdəki uşaqların səviyyəsinə çatmaq üçün fərdi və ya kiçik qrupda kömək göstərilir.

İngilis dili tədrisinin üstünlüyü ondadır ki, yuxarı siniflərdə ümumiyyətlə, tədris və danışıq ancaq ingilis dilində aparılır. İki xarici müəllim (biri norveç o birisi isə ingilis) hal-hazırda yuxarı siniflərə ingilis dilində dərs keçirlər.

## BRITANIYA TƏDRIS PLANI

Gəncə Beynəlxalq Məktəbində biz Britaniya tədris planına riayət edirik. Bu uşaqları universitetlərə qəbul olmaq üçün beynəlxalq dərəcədə keçirilən imtahanlara doğru aparır. Bundan başqa, Britaniya tədris planı bütün fənnlərdə informasiya texnologiyasını vurğulayır (kompyuterdən və internetdən istifadə); bu həmçinin beynəlxalq perspektiv verməyə kömək edir.

## NƏ ÜÇÜN BIZ ÖZƏL MƏKTƏBLƏRƏ INANIRIQ




Dünyada naringi ya da banan ağacı olmasa və yalnız alma ağacları olarsa bu necə olardı?  Ya da nə Snikers, nə də Baunti yalnız Mars şokoladı olsa necə olar?  Yox?  Siz seçim istəyirsiniz?  Bəs avtomobillər?  Hamımızda eyni avtomobillər olsaydı nə yaxşı olardı! Ehtiyat hissələrini tapmaq üçün heç bir problem olmazdı!  Beləliklə, gəlin, razılığa gələk və hamımız Jiquli sürək.  Siz bu fikri də xoşlamadınız?

Özəl təhsilin üstünlüyünün birinci səbəbi odur ki, Azərbaycan özünü bazar iqtisadiyyatı qanununa həvalə etmişdir. Bazar iqtisadiyyatının əsas izahı seçimdir.

- Seçim - müxtəlif insanların təkliflərinə yer vermək deməkdir. Hər kəs müxtəlifdir. Biz müxtəlif meyvə və avtomobilləri xoşlayırıq. Biri digərindən yaxşı ola bilməz. Ancaq seçim varsa, insanların razı olmaqlarına daha çox şans var.
- Seçim həmçinin rəqabətdə də nəticə verir. İnsanların seçim imkanı olanda, onlar xoşlamadıqları şeyləri seçmirlər. Bu standartları artırmağa kömək edir. Özəl məktəb dövlət məktəbləri ilə rəqabətdədir. Dövlət məktəbləri pulsuzdur və onların geniş imkanları var. Valideyn ancaq Gəncə Beynəlxalq Məktəbi kimi özəl məktəbi mühüm xeyir təklif

etdiyini halda seçə bilər. Özəl məktəb yüksək standart təklif etməlidir, yoxsa o davam gətirə bilməz.
- Seçim dəyişikliyi asanlaşdırır. Müəssisə dəyişməli olan zamanda artıq bənzəyə biləcək nümunələr olanda, onun üçün daha asan olur.

# TƏDRIS VƏSAITLƏRI

## RIYAZIYYAT KITABLARI

GBM-də 1-ci sinifdən başlayaraq, riyaziyyat dərsləri xüsusi tədris vəsaitləri ilə keçilir. Belə ki, bu kitablar Kembric Universitetinin nəşrləridir və üç əsas strukturdan ibarətdir: Hesab, Rəqəmlər və Rəqəmlər Sistemi, Ölçü, Fiqurlar,və Müstəvi.




Hər üç struktur özündə dörd kitabı əhatə edir: Şagird kitabı, Müəllim kitabı, Fotosurət kitabı və Cavablar .  Kitabdakı dərslər dərsin məqsədi ilə birbaşa uzlaşaraq aydın məzmuna malikdir və müxtəlif qabiliyyətli şagirdlər tərəfindən asan mənimsənilir.

Kitablarda zəngin dərs planları, interaktiv şəkillər və maraqlı tövsiyələr var.  Burada dərsin məqsədi, əsas ideyası, dərsin mərhələləri, şifahi hesab tapşırıqları, əsas mövzu, şagirdlərin qabiliyyətindən asılı olaraq müstəqil və müəllimin nəzarəti ilə edilən tapşırıqlar verilmişdir.




Digər fənnlər üçün də belə resurslardan istifadə olunur.  Bu sadəcə olaraq misallardır, hər şeyi siyahı ilə demək çox çəkəcək.

- Bağça sinfi

İnteraktiv öyrənmə yolları: Qida, Su, Rollu oyunlar, Evlər və binalar, Fiqurlar, Hava, Şən Fonetika, Rollu oyunların əhəmiyyəti və idarə olunması.  Şagirdlərdə xarakterin formalaşması üçün kitablar: ‘Qaydalara əməl edək’, ‘Gəl, dostlaşaq’, ‘Birgə çalışaq’, ‘Bizə kim kömək edəcək?’






- Hazırlıq sinfi

İngilis dilinə aparan oyunlar: Tapşırıq və təlimlər kitabı, Şagird kitabı, Video və audio vəsaitlər, İnteraktiv şəkillər




- 1 və 2-ci siniflər

Britaniya tədris kurrikulumu, Oksford oxu kitabları, Tapşırıq kitabları, Video və audio vəsaitlər, İnteraktiv şəkillər

- 3-cü sinif

Britaniya tədris kurrikulumu, Oksford oxu kitabları, Tapşırıq kitabları, Video və audio vəsaitlər, İnteraktiv şəkillər, İnternet resurslar və informasiya texnologiyasından istifadə, Vizual görüntülərlə tədris, Proyektorla interaktiv oxu, Müxtəlif əyani vəsaitlər

- 4 və 5-ci siniflər

Britaniya tədris kurrikulumu, Oksford oxu kitabları, Tapşırıq kitabları, Video və audio vəsaitlər, İnteraktiv şəkillər, İnternet resurslar və informasiya texnologiyasından istifadə, Vizual görüntülərlə tədris, Proyektorla interaktiv oxu, Müxtəlif əyani vəsaitlər

# İDARƏETMƏ

## KOMITƏ VƏ ONUN IŞI

2003-cü ildə Gəncədə yaşayan xaricilər bir yerə yığışıb bu şəhərdə beynəlxalq məktəbin fəaliyyətinin başlanmasının üstünlüklərini və ehtiyaclarını müzakirə etdilər. Gəncə Beynəlxalq məktəbinin fəaliyyəti bu müzakirələrdən başladı. Xaricilərin bu qrupu məktəbə nəzarəti davam etdilər. Məktəb böyüdüyü üçün qrup daha da formalaşıb və indi bizim məktəbdə komitə var.

Hal-hazırda, məktəb komitəsini əsasən Gəncədə yaşayan Gəncə Beynəlxalq məktəbinə maraq göstərən xaricilər təşkil edir. Komitədə altı nəfər var və məktəb komitəsinin iclası üç həftədə bir dəfə keçirilir. Bu altı nəfər dörd müxtəlif təşkilatlardan gəliblər və burada dörd müxtəlif milliyyət nümayəndələri təmsil olunur. Nümayəndələrin təcrübə və bilik zənginliyi Gəncə Beynəlxalq məktəbinə üzləşdiyi məsələlərlə  geniş perspektiv əldə etməyə kömək edir. Məktəbin müdiri, baş müəllim və "S&P Training" nümayəndələrindən ibarət olan idarəetmə qrupunun komitədə avtomatik yerləri var. Digərləri müxtəlif təşkilatlardan olan nümayəndələrdir.

Gəncə Beynəlxalq Məktəbi və "S&P Training" arasında olan əlaqəni təsvir edən nizamnamə 2006-cı ildə təsis olunub. Gəncə Beynəlxalq məktəbi "S&P Training"in hüquqi obyekti altında fəaliyyət göstərir. Nizamnamə həmçinin Gəncə Beynəlxalq Məktəbi fəaliyyət göstərdiyi quruluşu da nəzərə alır. Məktəbin keçən ilki nailiyyətini və gələn illik məqsədlərini nəzərdən keçirən illik ümumi iclas hər il apreldə keçirilir. İllik ümumi iclasda komitə təyin olunur və komitənin müdiri, katibi və komitənin yeni üzvləri seçilirlər.

Məktəb komitəsinin əsas fəaliyyətini aşağıdakı kimi yekunlaşdırmaq olar:

- Məktəbin gələcəyinə aid olan strateji məsələləri həll edir.
- Məktəbin müdiri və baş müəllimindən ibarət olan idarəetmə heyyətinə məsləhət verir. Məktəbin müdiri məktəb komitəsinə cavabdehdir.
- Komitənin işinə məktəbin gündəlik idarə olunması daxil deyil, lakin maliyyə artımını və işçi personalının qəbulunu o tətin edir.
- Məktəb üzləşdiyi mühüm etirazlar olanda, məktəb komitəsi adətən kömək edir

# ƏSAS IDARƏETMƏ SƏNƏDLƏRI

## GƏNCƏ BEYNƏLXALQ MƏKTƏBININ MƏRAMI

Məktəbin məramı belədir: “Usaqların tam potensialını inkişaf etdirə biləcək, onların həyat və beynəlxalq səvyyədə məqsədlərinin möhkəm əsasını təmin edə biləcək bir məktəb olmaqdır.”

## GƏNCƏ BEYNƏLXALQ MƏKTƏBININ NIZAMNAMƏSI

Bu nizamnamə Gəncə Beynəlxalq məktəbini “S&P Training”in bir qolu kimi əsaslandırır və onun fəaliyyət metodunu təyin edir. Ancaq lisensiya alınmamışdan əvvəl bu nizamnamə qeydiyyatdan keçirilə bilmir.

## DAXILI QAYDALAR KITABÇASI

Daxili qaydalar kitabçası Azərbaycan hökümətinin iş kodu və məktəblə hər bir işçinin arasında olan dəqiq gözləmələri təsvir edən fərdi müqavilə kimi xidmət göstərir.

## MƏKTƏB/VALIDEYN MÜQAVILƏSI

Məktəb/valideyn müqaviləsi məktəb və hər bir tələbənin valideyni arasında olan tələbələrə aid gözləmələri təfsilatı ilə göstərir.

## VALIDEYN ARAYIŞ KITABÇASI

Bu tələbələrin valideynlərində tədris ili kursundan nələr gözləmələri haqda bir fikir yaradır.

# İŞÇI HEYƏTININ TƏLIMATLANDIRILMASI

GBM-nin müəllimlərin hamısı Azərbaycanda qəbul olunan müəllimlik üzrə diplom və ya dərəcələrə malikdirlər. Ancaq buna baxmayaraq, biliyi və bacarığı təkmilləşdirmək mümkündür.

## SEMINARLAR VƏ TRENINQLƏR

Müəllimələrimizi daha da peşəkar səviyyəyə gətirmək və dərslərin daha da effektiv keçirilməsini təmin etmək məqsədilə məktəbimizdə müntəzəm olaraq treyninqlər keçirilir. Hər həftənin bazar ertəsi saat 3:30-da həmin həftə üçün nəzərdə tutulmuş mövzuları əhatə edən seminar treyninq keçirilir. Seminarlar adətən direktor tərəfindən aparılır və mövzular barəsində müzakirələr olduqda müəllimlərin rəyi nəzərə alınır. Müəyyən xüsusi mövzularla əlaqədar olaraq həmin mövzular üzrə mütəxəssis olan şəxsləri treyninglərimizə dəvət edirik. İngiltərə təhsilini daha da yaxından müşahidə etmək məqsədilə Böyük Britaniyadan gətirilmiş İngiltərə təhsil sistemini əks etdirən DVD və CD-Romlardan istifadə imkanları olur.

Hər tədris ilinin əvvəlində avqust ayından başlayaraq sentyabr ayının əvvəlinədək İngiltərə və ABŞ-dan dəvət olunmuş təcrübəli müəllimlər tərəfindən treyninqlər keçirilir. Bu treyninqlər uşaqlarla daha effektiv işləməyin əsas prinsiplərini, illik, rüblük, həftəlik və günlük dərs planlarının işlənib hazırlanması kimi mövzuları əhatə edir.

Bütün bu treyninqlərdən əlavə daha da əyani şəkildə keçirilən treyninqlər də olur. Bu hər il may ayının əvvəllərində Bakı şəhərində yerləşən bir neçə Beynəlxalq Məktəblərə təşkil olunan tədrislə əlaqədar səfərlərdir. Oradakı məktəblərdə (bunlar Bakı Oksford Məktəbi, Azərbaycan Beynəlxalq Məktəbi, Bakı Beynəlxalq Məktəbləridir) keçilən tədris və təhsil metodikasını daha da yaxından müşahidə etmək və öyrənmək imkanları yaranır. Müəllimlər, dünyagörüşünü və tədrisi daha da artırmaq, təkmilləşdirmək üçün bu cür fürsətlərdən maksimum dərəcədə istifadə etməyə çalışırlar.

## TƏLƏBƏLƏR

### XARICI TƏLƏBƏLƏR



“Daniel Bartlett 3-cü sinifdə oxuyur. O ingilisdir, olduqca şən, həyatsevər bir uşaqdır. Mən ilk dəfə bu sinfə müəllimə təyin olunanda onun yumor hissinə valeh olmuşdum. Onun Azərbaycan dilində danışmağı, şerlər bilməyi hami tərəfindən maraqla qarşılanır. Hətta fasilə vaxti belə hamı ondan şer danışmasını xahiş edir. O gülməli əhvalatları sevir. Bir gün mən qərara aldım ki, onun kiçik, yumor hissi ilə zəngin hekayələrini yığım. Belə də etdim. Onun sinif lətifələri toplusunu yaratdim. Yadimdadir, bu qonaqlar, müəllimlər, valideyn və uşaqlar tərəfindən böyük maraqla qarşılandi. Daniel dərsləri, uşaqları və məktəbi sevir. Onunla bir sinifdə olmaq zövqdur!”

Aida Şirinzadə (3-cü sinif müəlliməsi)

### XÜSUSI TƏHSILƏ EHTIYACI OLAN UŞAQLAR.



Məktəbimizdə dörd xüsusi təhsilə ehtiyacı olan uşaq təhsil alır. Bu uşaqları başqa uşaqlardan fərqləndirən cəhət, onların fiziki cəhətdən qüsurlu olmalarıdır. Məhz bu səbəbə görə də onların xüsusi təhsilə ehtiyacı vardır. Bu uşaqlarla əlaqələndirici müəllim məşğul olur. Belə uşaqlardan biri də Fuad Talıbovdur. Fuad ilk dəfə məktəbimizə gələndə təhsillə bağlı heç bir anlayışı yox idi. Lakin bir müddət keçdikdən sonra Fuadın müəllimlərinin və valideyinin birgə işi sayəsində onda böyük dəyişikliklər nəzərə çarpdı. Belə ki, o, dərsə daha həvəslə yanaşdı, biliklər əldə etməyə başladı. Hal-hazırda Fuad məktəbimizin 5-ci sinfində təhsil alır . O uşaqlarla normal rəftar edir və digər uşaqlar kimi dərslərini böyük həvəslə öyrənir.

## XÜSUSI TƏHSILƏ EHTIYACI OLAN UŞAQLARIN CƏMIYYƏTƏ INTEQRASIYASININ ƏHƏMIYYƏTI

Məktəbimizdə xüsusi təhsilə ehtiyacı olan uşaqları digər uşaqlardan ayırmırıq və onlara sinifdə, dərs müddətində köməklik edirik. Onların başqa uşaqlarla birlikdə təhsil almaları həm uşaqlara, həm də özlərinə kömək edir. Belə ki, belə uşaqlar özlərini cəmiyyətdən kənarda hiss etmirlər və bu onların və digər uşaqların inkşafına müsbət təsir göstərir. Digər uşaqlar isə məktəbdən kənarda fiziki cəhətdən qüsuru olan insanlarla necə rəftar edildiyini öyrənirlər.

Ancaq elə fiziki cəhətdən qüsuru olan uşaqlar da var ki, cəmiyyətə uyğunlaşa bilmirlər,uşaqlarla düzgün münasibət qurmağa çətinlik çəkirlər. Belə uşaqlardan biri də məktəbimizdə təhsil alan Sadıqov Əlidir. Hal-hazırda Əli ilə yalnız onun üçün təyin olunmuş müəllim məşğul olur. Biz ümid edirik ki, zaman keçdikcə Əli də təhsilini digər uşaqlarla birlikdə davam etdirəcək.



Aida müəllimə İngilis, Azərbaycan və Fələstin uşaqları ilə. GBM-kimi məktəb olmasa, xarici ailələrin Gəncədə qalması çətindir. Bu şəkil 2006-cı ildə çəkildi.

## İNTENSIV (DAVAMLI) INGILIS DILI PROQRAMI

Məktəbimizdə dərslər İngilis dilində tədris olunur. 1-ci və yuxarı siniflərə qəbul olunan uşaqlar arasında isə bu dili bilməyən, yaxud da az bilən uşaqlar olur. Bu isə müəllimlər üçün çətinlik törədir. Belə uşaqlara dərslərdən əlavə İntensiv (davamlı) İngilis dili Proqramı üzrə fərdi və ya kiçik qruplar şəklində məşğələlər keçilir. Məşğələlər İntensiv İngilis dili Proqramının müəllimesi tərəfindən aparılır. Hazırda 1-ci, 3-cü və 4-cü sinifdən olan uşaqlara məşğələlər keçilir.

Belə uşaqlardan biri də 4-cü sinifdə oxuyan Xavər Hüseynovadır. Xavər məktəbimizdə artıq iki ildir ki, təhsil alır. O, məktəbə qəbul olanda İngilis dilindən heç bir anlayışı yox idi. Lakin Proqramın, müəllimlərinin və valideyinlərinin sayəsində o, artiq sinif səviyyəsinə uyğun olaraq İngilis dilində danışa, oxuya və yaza bilir.

## VƏSAITLƏR

2007-ci il, oktyabrın 23-də biz öz vəsaitlərimizlə sinifimizin ilk gününü qeyd etdik. Əvvəllər bağça kimi istifadə olunmasına baxmayaraq, bizim tələblərimizə cavab vermək üçün bağçanın bir sıra təmir və modifikasiya işlərinə ehtiyacı var. 3,415 kvadrat metr sahəsi olan rahat yerdə yerləşir, gələcəkdə böyük oyun meydançası kimi fəaliyyət göstərə biləcək böyük həyati var.



Bədən tərbiyəsi üçün istifadə olunan otaq



Kompüter otağının bir hissəsi

## DƏRSDƏNKƏNAR ƏLAVƏ MƏŞĞƏLƏLƏR



Məktəbdə dərsdənkənar əlavə məşğələlər də keçirilir. Bu məşğələlər hər gün 2 saat 30 dəqiqə aparılır və bu müddət ərzində uşaqlar ev tapşırıqlarını edir, maraqlı oyunlar oynayır, öz seçdikləri kitabları oxuyurlar.

Gəncə Beynəlxalq məktəbində həftədə 2 dəfə dərsdənkənar şahmat məşğələsi keçirilir. Bu şəkildə 4/5 sinifdən Vüsal və Minəxanımdır. Vüsal bu yaxında 10 yaşına qədər olan uşaqlar arasında keçirilən Gəncə şahmat yarışında qalib gəlib.

Aşağı şəkil: yay gəzinti vaxtıdır.

## GƏNCƏDƏ XARICI AILƏLƏRDƏN OLAN UŞAQLAR VƏ INVESTISIYA ÜÇÜN OLAN ƏHƏMIYYƏTLƏR.



Azərbaycanın pedaqoji sistemi qərb ölkələrinin pedaqoji sistemindən fərqlidir. Uşaq bir sistemdə nə qədər uzun müddət olsa, onun üçün digər sistemə keçmək bir o qədər də çətin olur. Buna görə də Gəncə Beynəlxalq məktəbi xarici ailələr üçün böyük əhəmiyyət kəsb edir. Məktəbin coğrafi mövqeyi xarici ailələrin bir neçə beynəlxalq məktəb olan Bakı əvəzinə Gəncədə məskunlaşmasını qərarlaşdıra bilər. Və Gəncədə yaşayan xarici ailə şəhərdə beynəlxalq məktəb olarsa, orada daha çox qala bilər. Gəncə Beynəlxalq Məktəbi yaradıldıqdan əvvəl camaat görürdü ki, ailələr beynəlxalq təhsil sisteminin yoxluğundan Azərbaycandan planlaşdırdıqlarından tez qayıdırdılar.

Gəncədə yaşayan xaricilərin çoxu humanitar işə cəlb olunublar. Bəziləri biznesə cəlb olunublar və bunun sayı artmaqdadır. Yəqin buna görə də Gəncədə yaşayan xaricilərin çoxu şəhərdə investisiyanın artmasına yol açır.

# MÜƏLLIMLƏR VƏ IŞÇI HEYƏTININ QEYDLƏRI

## NƏRGIZ VƏLIZADƏ, BAŞ QƏBULÇU

S: Siz uzun müddətdir ki Gəncə Beynəlxalq məktəbində işləyirsiniz. Bu məktəbdə sizin üçün maraqlı olan nə var?
C: Burada uşaqlar ingilis dilini yaxşı öyrənirlər. Məncə bu çox vacibdir, çünki ingilis dili beynəlxalq dildir.
S: Siz bu məktəbi Gəncədəki başqa məktəblərlə yaxud, özünüz oxuduğunuz məktəblə müqayisə etsəniz, ən böyük fərqi nədə görürsüz ki, uşağınız üçün məhz bu məktəbi seçirsiniz?
C:Bu məktəbdə müəllimlər fərqlidir. Başqa müəllimlər sadəcə olaraq tədris edirlər. Onlar Gəncə Beynəlxalq Məktəbindəki kimi uşaqlarla oynamırlar. Uşaqların bu məktəbi xoşlamaqlarının əsas səbəbi odur ki, müəllimlər onlara məktəbə gelməyi əyləncə növü kimi qəbul etdirirlər.



Nərgiz Vəlizadə, Baş Qəbulçu

## İSRAYIL YANQ, DIREKTOR

S: Sizi Gəncə Beynəlxalq Məktəbində işləməyə vadar edən ən xoş səbəb nədir?
C: Mən gördüyüm hər bir işdə ən çox həzz aldığım insanlardır. Azərbaycanda irəliləməkdə olan özəl təhsil məktəbinin bir hissəsi olmaq həmçinin üstün cəhətdir.
S: Və ən çox xoşlamadığınız şey?
C: Mənim işim mənə istədiyim kimi uşaqlarla çox vaxt keçirməyimə imkan vermir.
S: Sizi Gəncə Beynəlxalq məktəbində işləməyə nə vadar edir?
C: Gəncədə beynəlxalq məktəbin olması, uşaqların və valideynlərin bizim məktəblə bağlı hekayələri və uşaqlarımı bir gün bura gətirmək fikri.



Israel Young, Direktor

## VALIDEYNLƏR

Nüşabə GBM-də dörd xüsusi təhsilə ehtiyacı olan uşaqlardan birinin, Fuadın anasıdır. Fuad beyin iflici xəstəsidir.
S: Fuad nə qədər vaxtdır ki, Gəncə Beynəlxalq Məktəbindədir?
C: Üç ilə yaxındır.
S: Necə oldu ki, siz Gəncə Beynəlxalq Məktəbi haqqında eşitdiniz?
C: Mənim “UAFA” ilə əlaqəm var. Orada Lyuda adlı xanım mənə Gəncə Beynəlxalq Məktəbi haqda danışdı. Mən həmçinin eşitmişdim ki, Gəncə Beynəlxalq Məktəbi Fuad kimi uşaqların adi məktəbə getmələrini dəstəkləyir.
S: Fuad Gəncə Beynəlxalq məktəbinə getməsəydi,o hara gedərdi?
C: Başqa yer yox idi. Mən Fuadı yerli bağçaya qoymaq istəyirdim, hətta onlara əlavə pul da təklif etmişdim, ancaq onlar onu qəbul etmədilər. Gəncədə Fuad kimi uşaqlar üçün 45 saylı məktəb var, lakin mən onu ora göndərmək istəmədim.
S: Fuad yaxşı oxuyur?

C: Bəli, o yaxşı oxuyur. Mən Fuada deyirəm: “Sən fəhlə olmaq istəmirsən”. Onun zehni inkişaf edir. Ancaq mən ona ingilis dilində köməklik göstərə bilmirəm.
S: Fuad Gəncə Beynəlxalq Məktəbini xoşlayır?
C: Bəli, o buranı çox xoşlayır. Gəncə Beynəlxalq Məktəbindən sonra o, İngiltərədə oxumaq istəyir!

## ASLAK BYORVATN, NORVEÇ, MƏKTƏBIN QONAĞI



Aslak Norveçdə dövlət məktəb müəllimidir və Norveç dilini ikinci dil kimi öyrənən uşaqlarla işləyir. O 2008-ci ildə martın 11-dən 14-dək Gəncə Beynəlxalq Məktəbində olmuş , burada qəbul sinifindən başlayaraq 5-ci sinfə qədər uşaqların tədrisini bütün mərhələlərdə müşahidə etmişdi və 4-cü və 5-ci siniflərə oxu təlimində kömək etmişdi. Onun şərhi budur:

“Məncə bütövlüklə müəllimlərin işçi heyyəti və administrator peşəkar və çox təcrübəli insanlardır. Mən oxu təlimində iştirak etdiyim üçün deyə bilərəm ki, oxu təliminin keçirildiyi üsul pedaqoji tərəfdən düzgündür. İşləri o dərəcədə yaxşıdır ki, onlar başqa məktəblər üçün nümunə ola bilərlər.

Qəbul sinifindəki uşaqlar sözlərlə analitik oyunlar oynayırlar, məsələn iki “l” ilə sözlər qurmaq (ball, tall, small və s.). 1-ci və 2-ci sinif uşaqları qafiyələrlə işləyirlər, məsələn “ack” və “ick”lə qurtaran sözlər. Bu oyunlar uşaqları dil baxımından daha düşüncəli edir. Biz də Norveçdə bu üsulla işləyirik.

Ancaq görürəm ki, fənnlərlə işləməyə gəldikdə, Gəncə Beynəlxalq Məktəbi Norveç dövlət məktəblərindən irəlidədir. Məktəbdəki mühit çox yaxşıdır. Müdir, xanım Şöli Veston məktəbi təbəssümlə idarə edir və həqiqətən də orada işləmək cəlbedicidir. Məktəb və oradakı iş mənə böyük təəssürat bağışladı.”

## ÖDƏNIŞLƏR

Bizim məqsədlərimizdən biri, Gəncə Beynəlxalq Məktəbinin Gəncədəki orta təbəqəli ailələr üçün əlverişli məktəb olmasıdır. Hiss edirik ki, biz bunu 2007-2008-ci il üçün altı ödənişə bölünmüş illik təhsil haqqı 405 AZN olan ödənişi təyin etməklə təkmilləşdirə biləcəyik. Tələbələrin istifadə edəcək bütün kitablar, yazı ləvazimatları və digər tədris materialları bu xərcə daxildir.

## TƏHSIL HAQQI

1-ci sinifdən 5-ci sinfədək.
Ümumi illik təhsil haqqı 405 AZN-dır.

| Semestr | Ödəmə | AZN | Ödəmə vaxtı |
|---|---|---|---|
| | Depozit | 67 | Uşağın qəbul olunduğu tarix |
| **Payız** | 1 | 68 | Sentyabr 28 |
| | 2 | 67 | Oktyabr 29 |
| **Qış** | 3 | 68 | Dekabr 17 |
| | 4 | 67 | Fevral 11 |
| **Yaz** | 5 | 68 | Mart 31 |
| | 6 | 0 | Depozit bu ödəməni əvəz edir. |
| **Cəmi** | | **405** | |

Eyni ailədən gələn uşaqların rüblük ödənişdə hər uşağa 8 AZN endirim olunacaq (hər ödənişdən 2 AZN çıxılacaq). Rüblük ödəniş əvvəlcədən ödənilirsə, 10% endirim olunacaq (III rüb üçün 10% endirim yoxdur). Depozit və ödənilmiş pullar geri qaytarılmır

## GBM-NIN ƏSAS IŞÇI HEYƏTI

- Məktəb direktoru: Israel Young
- Baş müəllimə: Shirley Weston
- Baş qəbulçu: Nərgiz Vəlizadə
- 4/5-ci sinif müəllimələri: Synnøve Aandstad, Aygün Musayeva və Səbinə Zeynalova
- 3-cü sinif müəlliməsi: Aida Şirinzadə
- 1/2-ci sinif müəlliməsi: Günay Verdiyeva, Aygün Musayeva kömək edir
- Qəbul və bağça sinif müəlliməsi: Şəhla Əmiraslanova
- Qəbul və bağça sinif assistenti: Növrəstə Hüseynova
- Xüsusi təhsil ehtiyacları olan uşaqlar üçün assistentlər: Səmayə Hüseynova və Xanım Bayramova
- Dayə: Nurlana İsmaylova
- Tibb bacısı: Səidə Səlimova

Bu adamlardan başqa inzibati və digər işləri görən üç nəfər işçi var. Əlavə olaraq həm yerli adamlar həm də xaricilər müntəzəm olaraq könüllülər kimi kömək edirlər. Bu adamların adlarını burada çəkməsək belə, etiraf edirik ki, onlarsiz GBM-i isləyə bilməz!



Məktəbin baş müəllimi, Shirley Weston

## GBM-NIN ƏSAS IŞÇI HEYƏTI

Qeyd: bu cədvəldə BD = Bakkalavr Dərəcəsi, MD = Magistratura Dərəcəsi

| Vəzifə | Ad | Milliyət | Tədris etdiyi fənn | Sinif | Diplom | Məktəbdə işləmə təcrübəsi | Dillər | | | | Kompyuterdə işləmək bacarığı | Digər məlumatlar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | Az. | İng. | Rus | Digər | | |
| Müdir | İsrail Yanq | Amerika | - | - | BD, Mədəni Əlaqələr, Betani Kolleci, ABŞ | - | 3 | 5 | | | Əla | |
| Baş müəllim | Şöli Veston | İngilis | - | - | BD və bakalavrdan sonra müxtəlif diplomlar.<br>İngiltərənin Qərb Universiteti, (Bristol şəhərində), Herdfordşayə Universiteti, Kaventri Universiteti | Cəmi 9 il. Hovric və Çölesböri Məktəbi sinif müəllimi və bədən tərbiyyəsi koordinasiyaçısı (1 il), SEN koordinasiyaçısı (7 il), Epping Green, Hertford, EBD uşaqlar üçün müəllim köməkçisi (1 il) | 1 | 5 | | | Əla | |
| Baş qəbulçu | Nərgiz Vəlizadə | Azəri | - | - | Azərbaycan Kənd Təsərrüfatı Akademiyası | | 5 | 4 | 5 | Türk | Yaxşı | Transparency İnternationalda dağılma əleyhinə dərsdə volontyor |

| Vəzifə | Ad | Milliyət | Tədris | Sinif | Diplom | Məktəbdə | Dillər | Kompyuterdə | Digər məlumatlar |
|---|---|---|---|---|---|---|---|---|---|

| | | | etdiyi fənn | | | işləmə təcrübəsi | | | | | işləmək bacarığı | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | Az. | İng. | Rus | Digər | | |
| Sinif müəllimi | Səbinə Zeynalova | Azəri | Rus dili, Tarix | 4/5 | BD Tarix və MD Arxeologiya Səmərkənd Dövlət Universiteti | Cəmi 3 il Səmərkənd şəhəri, 15 saylı orta məktəb və GBM | 5 | 5 | 5 | Özbək, Türk | Əla | |
| Sinif müəllimi | Aida Şirinzadə | Azəri | Bütün | 3 | BD və MD Gəncə Dövlət Universiteti, İngilis dili | Cəmi 7 il Gəncə şəhəri 2 saylı orta məktəb və GBM | 5 | 5 | 4 | Türk | Əla | Layihə uyğunluğu üçün layihə koordinatoru Sülh Korporasiya proqramının analoqudur. |
| Sinif müəllimi | Günay Verdiyeva | Azəri | Bütün | 1/2 | BD və MD Gəncə Dövlət Universiteti, İngilis dili | Cəmi 4 il GBM | 5 | 5 | 4 | Türk | Yaxşı | |
| Sinif müəllimi | Şəhla Əmiraslanova | Azəri | Bütün | Qəbul, bağça | | | | | | | | |
| Sinif müəllimi | Aygün Müsayeva | Azəri | Bütün | 4/5 | Azərbaycan Müəllimlər İnstitutu ibtidai təhsilin met. və pəd. Natamam ali | | 5 | 5 | 3 | Türk | Yaxşı | |
| Köməkçi | Növrəstə Hüseynova | Azəri | Bütün | | Gəncə Humanitar Kolleci, ingilis dili; natamam | Cəmi 2,5 GBM | 5 | 4 | 3 | Türk | Yaxşı | |

| Vəzifə | Ad | Milliyət | Tədris etdiyi fənn | Sinif | Diplom | Məktəbdə işləmə təcrübəsi | Dillər | | | | Kompyuterdə işləmək bacarığı | Digər məlumatlar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | Az. | İng. | Rus | Digər | | |
| Köməkçi | Xanım Bayramova | Azəri | Bütün | SEN uşaqlar | BD və MD Gəncə Dövlət Universiteti, ibtidai təhsilin met. və pəd. | Təzə işə başlayıb | 5 | 3 | 5 | Türk | Yaxşı | |
| Köməkçi | Səmayə Hüseynova | Azəri | Bütün | SEN uşaqlar | Gəncə Humanitar Kolleci, İngilis dili | Cəmi 3,5 GBM | 5 | 5 | 4 | | | |
| Dayə | Nurlana İsmaylova | Azəri | | | BD Gəncə Dövlət Universiteti, məktəbəqədər təhsilin pedaqoqikası və psixologiyası | | | | | | | UAFA-da könüllüdür. UAFA müxtəlif yerlərdə keçirdiyi Uşaqların inkişafı və müdafiəsinə aid 10-dan artıq təlimdə iştirak edib . |
| Tibb bacısı | Saidə Salimova | Azəri | | | Gəncə Tibb Məktəbi, müalicə işi | | 5 | 3 | 5 | Alman | Yaxşı | Sahibkarlıq və mühasibatlıq kursları |